# Ölümün gözünə dik baxan igid

**Cəlilabad torpağının yetişdirdiyi mərd, qeyrətli, çətin anda elinə, yurduna çəpər olmağı bacaran oğulların sırasında Əli Rüstəmovun adı qürurla, iftixarla çəkilir. 1992-ci il avqustun 15-də rayonun Çünzəli kəndində dünyaya göz açan Vətən sevdalısı İkinci Qarabağ müharibəsinin şəhididir. O, igid, vətənpərvər, xilaskar oğullar ilə, qazanılan parlaq qələbəmizdə mərdlik, şücaət göstərib, 28 yaşında ürəklərdə özünə əzəmətli abidə ucaltdı.**

Əli Yağınəli oğlu Rüstəmov 2020-ci ilin aprel ayında cəbhə bölgəsində kəşfiyyatçı kimi xidmət göstərib. O, hazırlıqla əlaqədar keçirilən təlimlərdə əla döyüşçü keyfiyyətləri nümayiş etdirib, bir qayda olaraq uğur qazanıb. 44 günlük haqq savaşımızda bütün igid oğlanlar kimi çəkinmədən, ölümün gözünə dik baxa-baxa odun-alovun içinə girib. Düşmənə vurduğu ilk zərbəsi ilə xeyli sayda düşmən məhv olub. Cəbrayıl, Füzuli ərazilərində mərdliklə vuruşub, bir-birindən çətin döyüş əməliyyatlarında fərqlənib. İntiqam alana qədər yağıya qarşı vuruşacağına and içən igid Əli çiyin-çiyinə döyüşdüyü silahdaşlarına da deyib ki, həmişə cəsarətli olun. Biz haqq işimiz naminə vuruşuruq. Tezliklə düşməni məhv edib, xalqın 30 illik yurd həsrətinə son qoyarıq.

Oktyabrın 8-də Füzulidə sözün əsl mənasında ermənilərin kabusuna çevrilən Əli burada düşmən gülləsinə tuş gəlib və ölümcül yaralanıb. Döyüşə-döyüşə şərəflə şəhidlik zirvəsinə yüksəlib.

Şəhidin ailə üzvləri deyirlər: Bir-iki gün idi Əlidən xəbər gəlmirdi. Narahat olduq. Telefonuna da zəng çatmadı və düşündük ki, əməliyyatdadır, gəlib özü zəng vurar. Sən demə, artıq Əlinin ruhu ulduzlu göylərdə dolaşırmış. Oktyabrın 29-dan 30-na keçən gecə Əlinin şəhidlik zirvəsinə ucalması xəbəri bizə çatdırıldı. Zəfər şəhidimiz həmin gün böyük izdihamla doğulduğu kənddə son mənzilə yola salındı. Həyat yoldaşı onun tabutunu çiyninə götürərək qəbiristanlığa qədər apardı. Əli o qədər vətənpərvər olub ki, hətta toyunda belə maşınını üçrəngli bayrağımızla bəzəyib. Hazırda Əlinin yatdığı müqəddəs yer onu tanıyan və tanımayan insanlar tərəfindən ziyarət edilir.



Ölümsüzlüyə qovuşan Cəlilabadın qəhrəman şəhid oğlu Əli dövlət tərəfindən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU.**

Respublika .- 2025.- 24 iyul (№151).- S.11.